**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİLNAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

Əlyazması hüququnda

ƏLƏSGƏROVA İRADƏ HACI QIZI

# AZƏRBAYCAN KİTABININ BƏDİİ VƏ TEXNİKİ TƏRTİBAT MƏSƏLƏLƏRİ

**3356.01 - "Kitabxanaşünaslıq və biblioqrafiyaşünaslıq; Kitabşünaslıq"**

Tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün
təqdim edilmiş dissertasiyanın

**AVTOREFERATI**

BAKI - 2015

Dissertasiya işi Bakı Dövlət Universitetinin "Kitabşünaslıq və nəşriyyat işi" kafedrasında yerinə yetirilmişdir

**Elmi rəhbər:** **Bayram Vəli oğlu Allahverdiyev**
*tarix elmləri doktoru, professor*

**Rəsmi opponentlər:** **Xəlil İsmayıl oğlu İsmayılov**
*Əməkdar mədəniyyət işçisi,*
*tarix elmləri doktoru, professor*

**Əilş Çoban oğlu Ağamirzəyev**
*filologiya üzrə fəlsəfə doktoru, dosent*

**Aparıcı təşkilat:** Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti

Dissertasiya işinin müdafiəsi _17__ fevral 2015-ci il tarixində saat ____-da Bakı Dövlət Universitetinin nəzdində yaradılmış Birdəfəlik Dissertasiya Şurasının iclasında keçiriləcəkdir.

**Ünvan:** AZ 1148. Bakı şəhəri, Z.Xəlilov küçəsi. 23, 2 saylı tədris korpusu, 4-cü mərtəbə, otaq № 405.

Dissertasiya işi ilə BDU-nun kitabxanasında tanış olmaq olar.

Avtoreferat ___ yanvar 2015-ci il tarixində göndərilmişdir.

**Birdəfəlik Dissertasiya Şurasının elmi katibi:** **dos. E.Y. Əhmədov**

## DİSSERTASİYA İŞİNİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Elmin, texnikanın inkişaf etdiyi, kompüter və internet şəbəkəsinin geniş yayılıb təşəkkül tapdığı hazırkı dövrdə də oxucu onu maraqlandıran suallara cavabı çox vaxt, məhz kitabda tapır. İnsana ətraf mühitin gözəlliyini duyub, mürəkkəbliyini anlamaqda yardım edən kitabın quruluşu, forması, texniki və bədii tərtibatı məzmunun oxucu tərəfindən qavranılmasına əhəmiyyətli təsir göstərir. Nəşrə verilən tərtibat oxucunu əsərin süjet xəttini izləməyə həvəsləndirməli, zəncir həlqələri kimi ardıcıllıqla düzülüb biri digərini tamamlayan daxili və xarici tərtibat elementləri (cild, şrift, titul, inisial...) nəşrin bədii forması, təyinatı və məzmunu ilə səsləşib müəllif ideyasının oxucuya kifayət qədər dəqiqliklə çatdırılmasını təmin etməlidir.

Nəşrin özəyini təşkil edən ideyanın oxucuya çatdırılma dərəcəsi bədii redaktorun interpretasiyasından, tərtibatın taleyi rəssamın yaradıcılıq imkanlarının janrın xüsusiyyətlərinə və yazarın üslubuna uyğunlaşdırılma səviyyəsindən asılı olur. Axı, hər tərtibatçının maraq göstərdiyi müəyyən sahə, janr, oxucu auditoriyası var: biri klassik ədəbiyyata üstünlük verdiyi halda, o biri lirik-romantik əsərlərə tərtibat verməyi xoşlayır. İstedadsız rəssam tərəfindən işlənilən əsər isə, tək oxucuya təsir qüvvəsini və dəyərini deyil, həm də potensial alıcısını itirmiş olur. Uzun illərin təcrübəsi göstərir ki, alıcını kitabı almağa vadar edən çox vaxt elə, məhz kitabın cildinin onda yaratdığı ilk təəssürat olur.

Əlyazmalardan fərqli olaraq, çap kitablarının tərtibatını tək tərtibatçıların istedad və ustalıqları yox, həm də poliqrafiya texnikasının texniki imkanları formalaşdırır. Mükəmməllikdən uzaq poliqrafiya texnikası tərtibatçıya fantaziyasını həyata keçirmək imkanı vermədiyi kimi, sadəcə mütaliə vasitəsinə çevrilən kitab da oxucunun diqqətini özünə cəlb edə bilmir. Tək oxu vasitəsi yox, həm də poliqrafiya məmulatı kimi tanıdığımız kitabın əsl sənət əsərinə çevrilməsi, texnologiyaya dərindən yiyələnməyi tələb edir. Bu sahədə tədqiqat aparıb bir sıra ixtiralara imza atmış kitab sənəti ustalarına, nəşrin effektli alınmasının birbaşa ona sərf edilən materialların özəlliklərindən asılı olması, hələ

çox qədimdən - orta əsrlərdən məlum idi. Günbəgün yeniləşib mükəmmələşən texniki avadanlıq və poliqrafiya texnologiyasının kitabın poliqrafik icra və bədii-texniki tərtibatına göstərdiyi təsirin həcminin böyüklüyü, bədii və texniki redaktorlardan hər nəşrə təyinatına uyğun tərtibat verilməsini, deməli, daha uğurlu kompozisiya həlli tapılmasına cəhd edilməsini tələb edir. Oxucunun nəzərini kitaba yönəltməyi bacaran tərtibatçı mütərəqqi ideyanı cəmiyyətə çatdırıb ölkədəki sosial-siyasi vəziyyətə konkret təsir göstərmək imkanı əldə etməklə yanaşı, həm də, istedadlı yazarın cəmiyyətdə tanınmasını və uğurlu nəşrlərin vaxtlıvaxtında oxucu auditoriyasına çatdırılmasını təmin etmiş olur.

Kitab tərtibatı ilə bağlı məsələlərin yüzilliklər boyu toplanılmış zəngin təcrübə əsasında hərtərəfli təhlil edilib sistemləşdirilməsi texniki və bədii redaktorlardan əsas ideyanın oxucuya düzgün çatdırılmasına yardım etməklə yanaşı, nəşrin bədii cəhətdən tək gözəl yox, həm də, məntiqli olmasına çalışmağı tələb edir.

Kitabşünaslıqda hələ kifayət qədər öyrənilməmiş bir problemin həllinə - gənclərin daha etibarlı və obyektiv informasiya daşıyıcısı olan nəşrlərə istiqamətləndirilməsinə, son nəticədə cəmiyyətdə statusu yüksələn yazar, redaktor və naşirlərin ictimai rəyə təsir imkanlarının artırılmasına yönəlmiş bu tədqiqat, bütövlükdə, millətin intellektual səviyyəsinin yüksəlməsinə, deməli, yaranması ehtimalı yüksək olan neqativ halların sayının azalmasına və sabitliyin qorunub saxlanılmasına xidmət edir. Bütün bunlar, ilk dəfə tədqiqata cəlb edilmiş mövzunun aktuallığını və problemin tədqiq olunmasının vacibliyini isbata yetirmiş olur.

**Problemin öyrənilmə səviyyəsi.** Azərbaycan kitabının, hələ orta əsrlərdən alim və mütəxəssislərin diqqətini cəlb etmiş bədii və texniki tərtibat xüsusiyyətləri yazılan dissertasiyalarda, elmi məqalə, kitab və monoqrafiyalarda öz əksini tapmışdır. Bunların sırasında sənətşünas alim A.Y.Qazıyevin "Azərbaycan incəsənə-[1]tində əlyazma kitabının bədii tərtibatı" (XIII-XVII) [1] adlı dok-

---

[1] [1]Казыев А.Ю. Художественное оформление рукописных книг в искусстве Азербайджана (XIII-XVII вв.): Автореферат дис.... докт. Искусст. наук. Баку: Изд-во АН Азерб. ССР, 1967, 64с.

torluq dissertasiyası və "Orta əsr əlyazma kitabının bədii və texniki materialları"[2] adlı monoqrafiyası xüsusi yer tutur. Onun orta əsr kitab sənəti ustalarının istifadə etdikləri iş ləvazimatları, materialları və onların hazırlanma qaydalarına dair ətraflı məlumat verən elmi tədqiqatlarında kitabşünaslığın nəzəri, tarixi və təcrübi problemləri, terminologiyası, xəttatlıq və boyakarlıq sənəti, əlyazma kitabının yaranma və inkişaf xüsusiyyətləri, cild materialları və s. öz əksini tapır. XVI-XVII əsrlərin görkəmli rəssamı, şair və xəttatı Sadıq bəy Əfşarın (1533-1616) XVII yüzilliyin boyakarlığına dair ən qiymətli mənbə sayılan "Qanun-üs-süvər"[3] ("Təsvirlər qanunu") risaləsinin Azərbaycan dilinə tərcümə edilib elm aləminə təqdim edilməsi də elə, məhz istedadlı kitabşünas alim A.Y.Qazıyevin xidmətləri sırasına daxildir.

[2]Kitab tərtibatı ilə bağlı elmi xarakterli məlumatları əks etdirən tədqiqat işləri sırasında B.V.Allahverdiyevin "Orta əsr Azərbaycan kitabı (XI-XVIII əsrlər)" [4] adlı dissertasiyasını, "Kitablar haqqında kitab"[5], "Ümumi kitab tarixi"[6], "Azərbaycan[7] kitabşünaslığının tarixinə bir nəzər" və s. əsərlərini, M.Adilovun “Azərbaycan paleoqrafiyası”[8], N.Yarməmmədovun ”XİX əsr Azərbaycan əlyazma kitabı”[9], M.Adilov və Ə.Məmmədbağıroğlunun

---

[2]Казыев А.Ю. Художествено-технические материалы средневековой рукописи. Баку: Изд-во АГУ, 1966, 136с.

[3] Əfşar S. Qanun üs-süvər. Bakı: Elm, 1971, s. 6-7

[4]Аллахвердиев Б.В. Средневековая Азербайджанская книга (XI-XVIII вв.): Автореф. дис. ... канд. филолог. наук. Баку, 1968, 20с.

[5]Allahverdiyev B.V. Kitablar haqqında kitab. Bakı: Gənclik, 1972, 96 s.

[6]Allahverdiyev B.V. Ümumi kitab tarixi. Bakı: Azərbaycan Milli Ensiklopediyasının Nəşriyyat-Poliqrafiya Birliyi, 2003, 384 s.

[7]Allahverdiyev B.V. Azərbaycan kitabşünaslığının tarixinə bir nəzər // Azərbaycan kitabşünaslığı (biblioqrafik göstərici). Bakı: Bakı Dövlət Universitetinin nəşriyyatı, 2003, 101 s.

[8]Adilov M. Azərbaycan paleoqrafiyası. Bakı: Elm, 2009, 224 s

[9]Yarməmmədov N. XİX əsr Azərbaycan əlyazma kitabı. Bakı: Nurlan, 2009, 151s.

"Azərbaycan əlyazmalarında filiqranlar"[10], K.Kərimovun "Soltan Məhəmməd və onun məktəbi"[11], A.Musayevanın "Əlyazma kitabı və XV-XVI əsrlər Azərbaycan ədəbiyyatı"[12], A.Xəlilovun "İlk Azərbaycan kitabı"[13],C.Qəhrəmanovun "Orta əsr Azərbaycan kitab mədəniyyəti"[14], H.Həsənovun "Azərbaycan kitabının inkişaf mərhələləri"[15] və "İnqilabdan əvvəl Azərbaycanda kitabçılıq işi"[16], Ə.Mirəhmədov və H.Həsənovun "Sovet Azərbaycanının kitab mədəniyyəti"[17] kimi kitab və kitabçalarını, İ.Zəkiyevin "Azərbaycan kitabının inkişaf yolu"[18] adlı monoqrafiyasını, P.Hacıyev, K.Kərimov, C.Həsənzadə, E.Məmmədov, F.Əfəndiyev kimi kitabşünas, tarixşünas və sənətşünas alimlərin çoxsaylı elmi məqalə və dissertasiyalarını da qeyd etməliyik.

[3]Azərbaycan kitabının bədii və texniki tərtibat problemlərinin öyrənilməsində Azərbaycan Elmlər Akademiyasının M.Füzuli adına Əlyazmalar İnstitutu, Respublika Kitab Palatası (1987-ci ilə kimi), Bakı Dövlət Universitetinin "Kitabşünaslıq və nəşriyyat işi" kafedrası, nəşriyyat və s. müəssisələr də fəal iştirak edirlər. Kitabşünaslığa dair elmi tədqiqat xarakterli materiallara M.Füzuli adına Əlyazmalar İnstitutunun "Əlyazmalar xəzinəsin-

---

[10]Adilov M. və Məmmədbağıroğlu Ə. Azərbaycan əlyazmalarında filiqranlar. Bakı: Tural-Ə, 2001, 56 s

[11]Kərimov K. Soltan Məhəmməd və onun məktəbi. Bakı: İşıq, 1993, 144s.

[12]Musayeva A. Əlyazma kitabı və XV-XV əsrlər Azərbaycan ədəbiyyatı. Bakı: Nurlan, 2002, 340s.

[13] Xəlilov A. İlk Azərbaycan kitabı. Bakı: Şərq-Qərb, 1995, 48 s.

[14]Qəhrəmanov C.V. Orta əsr Azərbaycan kitab mədəniyyəti. Bakı: İşıq, 1991, 36 s.

[15]Həsənov H.B. Azərbaycan kitabının inkişaf mərhələləri. Bakı: Azərnəşr, 1989, 255 s.

[16]Həsənov H. İnqilabdan əvvəl Azərbaycanda kitabçılıq işi. Bakı: 1965, 170 s.

[17]Mirəhmədov Ə., Həsənov H. Sovet Azərbaycanının kitab mədəniyyəti. Bakı: Azərnəşr, 1975, 82 s.

[18] Zəkiyev İ.Ş. Azərbaycan kitabının inkişaf yolu. Bakı: Azərbaycan Milli Ensiklopediyasının Nəşriyyat-Poliqrafiya Birliyi, 2000, 388 s.

də" (1961, 1963, 1977, 1979, 2006), BDU-nun "Elmi əsərləri"-nin "Kitabxanaşünaslıq və biblioqrafiya" seriyasında (1970-1979) və "Kitablar aləmində" (1965-1991), "Zəka" (1991-1995), "Azərbaycan nəşrləri" (Kitab klubu, 2004) jurnallarında və digər mətbu orqanlarda da yer verilir. BDU-nun professorları B.V.Allahverdiyev, A.A.Xələfov və X.İ.İsmayılovun təsis etdikləri "Kitabşünaslıq və nəşriyyat işi" (2008), "Kitabxanaşünaslıq və informasiya" (2010) və "Kitabxanaşünaslıq və biblioqrafiya" (1997) jurnallarında da kitab, kitab tarixi və kitabçılıq işinin aktual problemlərinin tədqiqinə dair materiallar dərc edilir. Bütün bu elmi əsərlərdə Azərbaycan kitabının bədii və poliqrafik tərtibatı məsələlərinə (xüsusilə də XX əsr və XXI əsrin əvvəlləri) toxunulsa da, problem bu gün də əsaslı tədqiq edilməmiş aktual məsələ kimi qalmaqda davam edir. Azərbaycan kitabının bədii və texniki tərtibat problemləri ilk dəfə, məhz bu dissertasiyada tədqiqat obyektinə çevrilib öyrənilir, araşdırılıb təhlil edilir.

**Tədqiqatın obyekti.** Azərbaycan kitabının bədii və texniki tərtibat məsələləridir.

**Tədqiqatın predmeti.** Azərbaycan kitabının bədii və texniki tərtibatının formalaşma və inkişaf qanunauyğunluqlarıdır

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatı aparmaqda məqsəd milli kitabımızın tərtibat tarixini araşdırıb bədii və texniki tərtibatının əsas inkişaf mərhələlərini müəyyənləşdirmək, əsas vəzifə bu sahənin gələcək inkişaf perspektivlərinə aydınlıq gətirməkdir. Qoyulan məqsədə nail olmaq üçün:

-Azərbaycan kitabının inkişaf mərhələlərini yazının meydana gəldiyi dövrdən başlayaraq izləməklə yanaşı, həm də bu inkişafı şərtləndirən ilkin tarixi şərait və amilləri meydana çıxarmaq;

-əlyazmalarda işlədilmiş xətt növlərini göstərib təhlil etməklə yanaşı, həm də görkəmli xəttatların əməyini dəyərləndirmək;

-orta əsr sənətkarlarının iş üsulları və istifadə etdikləri bədii-texniki materialların xassələrini, miniatürlərin tərtibat xüsusiyyələri ilə əlaqəli şəkildə gözdən keçirib ətraflı təhlil etmək;

-çap kitabının tərtibat xüsusiyyətlərinin poliqrafiya materiallarının özəllikləri, texnikanın inkişaf səviyyəsi ilə şərtlənən imkanları və çap üsulları ilə əlaqəsini araşdırmaqla yanaşı, həm də tərtibatda maddi-texniki bazanın yerini müəyyənləşdirmək;

-kitabın bədii tərtibat üsullarının təsnifatını aparıb, nəşrin kompozisiya və bədii poliqrafik formasını dəqiqləşdirmək;

-kitab tərtibatçılarının fəaliyyətini müqayisəli şəkildə dəyərləndirməklə yanaşı, həm də kitabın bədii və texniki tərtibatının gələcək inkişaf perspektivlərinə aydınlıq gətirmək tələb olunur.

**Tədqiqatın nəzəri-metodoloji əsası.** Bu əsası Azərbaycan Respublikasının Konstitusiyası, "Nəşriyyat işi haqqında" Azərbaycan Respublikasının Qanunu, " İKT-nin inkişafı üzrə 2003-2012-ci illər Milli strategiya "Dövlət Proqramı", dövlətçilik və azərbaycançılıq ideologiyası təşkil edir.

**Tədqiqatın nəzəri və əməli əhəmiyyəti.** Azərbaycan kitabının tərtibat tarixinin araşdırılması, ümumi kitab tarixinin işlənilməsinə layiqli töhfədir. Problemin tədqiqi prosesində irəli sürülmüş tövsiyə və təkliflər, habelə əldə edilmiş elmi qənaətlər və tədqiqat materialları kitabın tərtibat tarixinin zənginləşməsinə və bədii-texniki tərtibat səviyyəsinin yüksəlməsinə xidmət edir. Dissertasiyadan, yüz illər ərzində qazanılmış nəzəriyyə və təcrübəni özündə birləşdirib beynəlxalq standartlara cavab verən, tərtibatı məzmunu ilə vəhdət təşkil edə bilən kitab nəşrinin təşkilində, ensiklopediyalarda və bu sahəyə dair metodiki ədəbiyyatın hazırlanmasında, eləcə də, ölkənin ali məktəblərində "Kitabın bədii və texniki tərtibatı", "Azərbaycan kitabının tərtibat tarixi" və "Texniki redaktə" fənlərinin tədrisində, poliqrafiya materialları və məmulatları istehsalının təşkilində, həmçinin bu sahəyə dair dövlət standartlarının və normativ-texniki sənədlərin hazırlanması, habelə yeni nəşrlərin tərtibatı prosesində istifadə edilə bilər. Müdafiəyə aşağıdakı müddəalar çıxarılır:

- əlyazma kitabının meydana gəlib formalaşması, bədii və texniki tərtibat xüsusiyyətlərinin müəyyənləşdirilməsi;

;

- xətt növləri və xəttatlar, miniatürlər və onların yaradıcılarının fəaliyyətlərinin işıqlandırılması;

- Azərbaycanda çap kitabının formalaşması, onun bədii və poliqrafik tərtibatı tarixinin müəyyənləşdirilməsi;

- çap kitabının tərtibatçı rəssamlarının fəaliyyətlərinin meydana çıxarılıb dəyərləndirilməsi;

- kitabın bədii forma və tərtibat üsullarının təsnifatının aydınlaşdırılması;

- kitab tərtibatında maddi-texniki bazanın yerinin müəyyənləşdirilməsi;

- kitabın kompozisiya və bədii poliqrafik formasının şərh edilib aydınlaşdırılması;

- Azərbaycanda kitab tərtibatının və ümumilikdə kitabçılığın inkişaf perspektivlərinin müəyyənləşdirilməsi;

-Azərbaycan kitabının bədii-texniki tərtibat tarixinin öyrənilməsi, tərtibat xüsusiyyətlərinin hərtərəfli təhlili; təhlilin nəticələrinin respublikada kitab tərtibatının inkişafında yerinin və rolunun üzə çıxarılıb aydınlaşdırılması;

-Azərbaycan kitabının məzmun-forma uyarlılığını təmin edə biləcək nəzəri-təcrübi bazanın yaradılması, kitab tərtibatının beynəlxalq normalara cavab verməsinə və günün tələbləri səviyyəsinə yüksəlməsinə istiqamətlənən tövsiyələrin hazırlanması.

**İşin elmi yeniliyi.** Bu elmi iş kitabın bədii-texniki tərtibat xüsusiyyətlərinin kompleks şəkildə tədqiqat obyektinə çevrilib araşdırıldığı ilk təcrübə, Azərbaycan kitabının bədii-texniki tərtibat tarixinin pillə-pillə izlənildiyi ilk tədqiqat əsəridir. Dissertasiyada, kitabçılıq işi tarixində ilk dəfə olaraq (tək Azərbaycanda, MDB məkanında yox, ümumiyyətlə) kitabın tərtibat xüsusiyyətlərinin çap üsulları və poliqrafiya texnikasının inkişaf səviyyəsi, imkanları ilə bağlı araşdırılması, ədəbi, bədii, texniki redaktor işinin qarşılıqlı uzlaşdırılması həyata keçirilmiş, bədii tərtibat üsullarının təsnifatı verilib ifadə vasitələri dəqiqləşdirilmiş, kitab tərtibatında maddi-texniki bazanın rolu və yeri, nəşrin kompozisiya və bədii poliqrafik forması müəyyənləşdirilmişdir.

**Tədqiqatın aprobasiyası.** Tədqiqatın məzmun, müddəa və nəticələri müəllifin elmi nəşrlərdə dərc olunmuş çoxsaylı məqalələrində (ümumi həcmi 24,3 ç.v.), ali məktəb tələbələri üçün hazırladığı "Nəşrin bədii və texniki tərtibatı" adlı dərs proqramı (1,0 ç.v.) və "Kitabın bədii və texniki tərtibatı" adlı dərs vəsaitində (11,5 ç.v.) öz əksini tapmışdır. Onlardan hal-hazırda BDU-nun "Kitabxanaçılıq və informasiya" fakültəsində "Kitabın bədii və texniki tərtibatı", "Redaksiya-nəşriyyat işinin texnologiyası" və "Poliqrafiyanın texnika və texnologiyası", "Texniki redaktə" fənlərinin tədrisində, respublika nəşriyyatlarında çapa hazırlanan nəşrlərə bədii və ya texniki tərtibat verilərkən istifadə olunur.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, dörd fəsil, nəticə, istifadə edilmiş ədəbiyyatın siyahısı və üç əlavədən ibarətdir.

## ELMİ İŞİN QISA MƏZMUNU

Azərbaycan kitabının bədii və texniki tərtibatı məsələlərinin kompleks şəkildə tədqiq olunub araşdırılması əlyazma kitabının bədii-texniki tərtibat ənənələrinin inkişaf mərhələlərini izləməyə və kitab tərtibatı sahəsində əldə edilmiş nailiyyətlərdən yararlanmağa şərait yaradır. Kitabın yazı yaranandan 2010-cu ilə qədər keçdiyi yola işıq salınıb inkişaf mərhələlərinə dair tarixi təcrübənin araşdırılması və müqayisəli təhlil edilməklə öyrənilməsi, əldə edilən qənaətlərə söykənib ümumiləşdirmələr aparmağa və bu sahədə sözünü deməyi bacarmış yaradıcı şəxslərin əməyini layiqincə dəyərləndirməyə, eləcə də, Azərbaycan kitabının gələcək inkişaf perspektivlərini müəyyənləşdirməyə imkan verir.

Azərbaycan kitabının tərtibat tarixinin öyrənilməsi kitabın cəmiyyətdə informasiya daşıyıcısı kimi rolunun, redaktorların isə ictimai rəyə təsir imkanlarının əhəmiyyətli dərəcədə artırılması, nəşrlərin elmi-ədəbi dəyərinin və bədii-texniki tərtibat səviyyəsinin yüksəldilməsi, eləcə də kitabşünaslıq elminin inkişafına xidmət göstərmək baxımından mühüm əhəmiyyət kəsb edir.

Dissertasiyanın girişində mövzunun aktuallığı və elmi dəyəri əsaslandırılır, işlənilmə səviyyəsi nəzərdən keçirilir, tədqiqatın

məqsəd və vəzifələri aydınlaşdırılır, nəzəri-metodoloji əsasından və elmi yeniliyindən, təcrübi əhəmiyyətindən söz açılır.

**“Azərbaycan əlyazma kitabının bədii və texniki tərtibatı”** adlanan, beş paraqrafdan ibarət I fəslin “Azərbaycanda yazı və əlyazma kitabının yaranması” adlanan 1-ci paraqrafında əlyazma kitabının meydana gəlib formalaşmasını şərtləndirən piktoqrafik, ideoqrafik, silloboqrafik və s. kimi yazı növlərinin geniş təşəkkül tapıb yayılmasından, tarixi ərazimizdə ərəb istilasına qədər istifadə olunmuş Orxon-Yenisey, qədim uyğur, alban əlifbalarından, ərəb qrafikası əsasında nəstəliq, şikəstə-nəstəliq kimi xətt növlərini işləyib təkmilləşdirən Mir Əli ibn İlyas (1330--1446) və Cəfər (1395-1480) Təbrizilərdən, Murtuzqulu xan Şamlı, Mirzə Şəfi və Dərviş Əbdülməcid Tələqani kimi xəttatlardan, daş, gil, tunc lövhə, ipək parça, ağac qabığı, papirus, heyvan dərisi (perqament), kağız kimi yazı materiallarından söz açılır, eləcə də həmvətənlərimizin IX əsrdə Təbriz yaxınlığında (Xunəcdə) kağız fabriki açıb işlətməsi ilə bağlı məlumat verilir.

I fəslin “Əlyazma kitablarında istifadə olunan xətt növləri” adlanan 2-ci paraqrafında kufi, nəstəliq, şikəstə, divani, divaniyi, reyhani, mühəqqəq, süls, təliq, nəsx, sünbülü, siyaqət, rüqə, divani-cəlili, qırma, icarət və s. kimi əlyazma xətt növlərinin fərqli xüsusiyyətlərindən, bu xəttlərlə üzü köçürülən əlyazmalardan, onların üzünü köçürən Əbdülmömün ibn Məhəmməd əl- Xoylu (XIII), Məhəmməd ibn Hinduşah Naxçıvani (XIII-XIV), Mübarək şah "Zərrin qələm" (XIV), şagirdləri Abdullah Seyrəfi Təbrizi (XIV) və Səadəddin Təbrizi (XIV), **Mir Əli ibn İlyas Təbrizi (1330-1405), onun oğlu Mir Abdullah Təbrizi "Şəkəri--qələm" (XV)** və digər tanınmış xəttatlardan, xəttatlıq sənətinin təlimi üsullarından (qələmi, nəzəri, məşq-e-xəyali) danışılır.

Orta əsrlərdə xəttatlığın nəzəri əsasları və xəttatlar haqqında yazılmış əsərlərdən: Hübeyş Əbül-Fəzl Tiflisi "Bəyan-əs-sənət" (XII), Məhəmməd ibn Hinduşah Naxçıvani (1292-1370)"Dəstur əl-katib fi təyin əl- məratib", Məcnun Çapnevis (XVI) "Rəsm-ül xətt", Şükürullah Qarabaği (XIX) "Hərf və xətlər haqqında risalə", Sultan Əli Məşhədi "Xəttatlar haqqında risalə", Mir Əli Hə-

rəvi (XVI) "Mədəd-ül-hütut" (1544), Qazi Əhməd əl-Hüseyni "Gülüstane-hünər", Məhəmməd ibn Abdullah Seyrəfi "Ədəb-ül-xətt", Sadıq bəy Əfşar ("Qanun-üs-süvər") və s. söz açılır.

I fəslin "Əlyazma kitablarında illüstrasiyalar" adlanan 3-cü paraqrafında kitab miniatür sənətinin tarixi ərazimizdə hazırlanan ilkin nümunələri - "Vərqa və Gülşa" (XIII, İstanbul, Topqapı muzeyi), "Mənafi əl-heyvan" (1298, fars dilinə tərcümə olunmuş surəti, Nyu-York, Pirpont Morqanın kitabxanası) və "Cami ət-təvarix"lə (1306, 1314, 1318) yaranmış Təbriz miniatür məktəbinin yerli bədii ənənələrin müxtəlif istiqamətli təsirlərlə qaynayıb-qarışıb kəsişməsi prosesində daha da inkişaf edib formalaşmasından, ilkin kitab illüstrasiyaları kimi meydana gəlib bu gün də ifadə vasitələrinin rəngarəngliyi, mənzərə motivlərinin zənginliyi, çoxfiqurlu səhnələrinin möhtəşəmliyi ilə bizi heyran edən əsrarəngiz miniatürlərdən, onların yaranmasını şərtləndirən sosisl-tarixi və iqtisadi şəraitdən, eləcə də onları yaradan istedadlı sənət ustalarımızdan (Soltan Məhəmməd, Mir Müsəvvir, Müzəffər Əli, Məhəmmədi, Mir Seyid Əli, Əli Rza Təbrizi, Şahqulu, Vəlican və b.) danışılır, bu sahədə müvəffəqiyyət qazanmış ustad sənətkarlarımızın əməyi dəyərləndirilir.

I fəslin "Əlyazma kitablarının bədii-texniki materialları" adlanan 4-cü paraqrafında əlyazma kitablarının tərtibat xüsusiyyətləri kitab sənəti ustalarının iş üsulları və istifadə etdikləri bədii-texniki materialların səciyyəvi xüsusiyyətləri ilə əlaqəli və kompleks şəkildə araşdırılıb hərtərəfli təhlil edilir.

Orta əsrlərdə bir çox ölkələrə geniş yayılmış yazı materialına-papirusa yazılmış kitabların tarixi ərazimizdə ola biləcəyi əvvəllər də ehtimal olunsa da, bu məsələyə ilk dəfə, məhz bu dissertasiya işində aydınlıq gətirilir. Azərbaycan rəssamı Mir Seyid Əlinin Fransanın E.Gime muzeyində saxlanılan "Mir Müsəvvir" (1540) portreti və N.Gəncəvinin "lülələnmiş kağıza (papirus) diz üstə inci axar" misrası ("Xəmsə") bu yazı materialının və "lülə" formalı kitabın həmvətənlərimizə məlum olması ehtimalının həqiqətə uyğun olduğunu iddia etməyə əsas verir.

Əyyuqinin XIII əsrin əvvəllərində üzü gözəl nəsx xətti ilə köçürülüb 71 miniatürlə bəzədilmiş, hal-hazırda İstanbulun Topqapı muzeyində saxlanılan "Vərqa və Gülşa", eləcə də, N.Gəncəvinin o dövrə aid əlyazmalar sırasında adlarını çəkə biləcəyimiz "İsgəndərnamə"(1233, xəttat Məhəmməd ibn Xacə Nəsrəddin, Tehran. Əsgər Mətavinin şəxsi kitabxanası) və "Sirlər xəzinəsi" (1239, nəsx xətti, London. "İndiyan Ofis" kitabxanası), X.Təbrizinin “Şərh divan əl-həmasə” (1256) əsərlərinin əlyazma nüsxələri Azərbaycanda XIII əsrin əvvəllərində yazı və əlyazma kitabının formalaşmağa doğru istiqamət götürdüyünü və bu sahədə artıq müəyyən uğurların qazanıldığını göstərir: ilkin kitab illüstrasiyaları və ornament motivləri, xətt növləri meydana gəlir, istedadlı kitab sənəti ustaları yetişir, kağızın keyfiyyətinə xüsusi diqqət yetirilir, yazı ləvazimatı, mürəkkəb reseptləri və iş üsulları təkmilləşdirilirdi. Əlyazmaların hazırlanması üçün tələb olunan mürəkkəb, boya, əlvan çalarlı kağızların da, elə Azərbaycanda hazırlanması, bu sahənin gələcək inkişafı üçün kifayət qədər güclü zəmin yarandığını bir daha isbata yetirmiş olur.

I fəslin "Əlyazma kitablarının tərtibat xüsusiyyətləri" adlanan 5-ci paraqrafında hal-hazırda AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunda qorunub saxlanılan nümunə və kataloqlar, eləcə də, A.Y.Qazıyev, K.Kərimov, C.Həsənzadə, B.V.Allahverdiyev, M.Adilov, C.Qəhrəmanov, K.Şərifli, İ.Zəkiyev və digər alimlərin son dərəcə dəyərli elmi-tədqiqat işləri əsasında araşdırılması əlyazmalarımızın qədimliyini və kitab sənəti ənənələrimizin zənginliyini bir daha təsdiqləmiş olur. Orta əsr əlyazmalarımızda istifadə edilən, yaradılmasında Azərbaycan xəttatlarının da əməyi olmuş xətt növlərinin sayı və gözəlliyi, kitab tarixinin ən parlaq səhifələrindən birini təşkil edən Təbriz miniatür məktəbinin yetkin dövrünün bu gün dünyanın ən məşhur muzeylərini və ən zəngin kolleksiyalarını bəzəyən miniatürləri, əsrlər boyu müxtəlif şəraitlərdə qalsalar da rəngini dəyişib solmayan zəngin çalarlı rəngarəng mürəkkəb və boyalar, eləcə də, yerli ustalar tərəfindən istehsal olunmuş əlvan kağız növləri və digər bədii-texniki materiallardan hazırlanmış nümunələr, orta

əsrlərdə Azərbaycanda əlyazma kitab sənətinin Orta Şərqin digər bədii məktəbləri ilə əlaqəli şəkildə inkişaf etdiyini və bu sahədə danılmaz nailiyyətlərin qazanıldığını bir daha təsdiqləyir.

**"Azərbaycan çap kitabının tərtibat tarixi"** adlanan, dörd paraqrafdan ibarət 2-ci fəsilin "Azərbaycan çap kitabının bədii və texniki tərtibat tarixi (XIX əsr və XX əsrin əvvəlləri - 1920-ci ilə qədər)" adlı 1-ci və "Azərbaycan çap kitabının bədii və texniki tərtibat tarixi (1920-91-ci illər)" adlı 3-cü paraqraflarında kitabçılıq tariximizdə ilk dəfə olaraq çap kitabının meydana gəldiyi vaxtdan 1991-ci ilə kimi keçdiyi tarixi yola nəzər salınır, milli kitabımızın bədii və texniki tərtibat ünsürlərinin yaranıb formalaşması prosesi izlənilir, kitabın mövcud tarixi şərait, çap üsulları və poliqrafiya sənayesinin inkişafı ilə paralel dəyişib təkmilləşən bədii və texniki tərtibat xüsusiyyətləri araşdırılır; "Azərbaycan çap kitabının tərtibatçı rəssamları" adlanan 1-ci və 4--cü paraqraflarında bu dövrlər ərzində tərtibat verilən nəşrlərdən, tərtibatçılardan (Usta Qənbər Qarabaği, Mirzə Qədim İrəvani, Mir Möhsün Nəvvab, Xurşidbanu Natəvan, Ə.Əzimzadə, İ.Axundov, Ə.Hacıyev, H.Mustafayev, S.Vlasova, M.Vlasov, Q.Xalıqov və b.) və onların kitab qrafikası sahəsindəki yaradıcılıq uğurlarından söhbət açılır, kitab sənəti ustalarının fəaliyyətləri araşdırılıb tərtibat verdikləri nəşrlər müsbət və mənfi cəhətləri göstərilib müqayisəli şəkildə təhlil edilməklə dəyərləndirilir.

Tədqiqat 1991-ci ilə kimi respublikada nəşrlərin bədii və poliqrafik icra keyfiyyətinin ildən-ilə yaxşılaşdığını, müxtəlif janrlı əsərlərə illüstrasiya çəkib tərtibat verməyi bacaran istedadlı rəssamlar ordusunun yetişdiyini, tərtibat verilən əsərlərin məzmunu ilə səsləşən dəyərli kitab illüstrasiyalarının yarandığını təsdiqlədi. Tərtibat sahəsində yeknəsəqlik, dekorativ bəzəyə aludəçilik halları aradan qaldırılmış, ümumiləşdirmə prinsipləri güclənmiş, sadə və ifadəli təsvir vasitələrinə meyil artmışdı. O dövrün ən yaxşı illüstrasiyalarını səciyyələndirən keyfiyyətlər ədəbi obrazlara yaradıcı münasibət, şərhin və icra tərzinin rəngarəngliyidir.

Sover hakimiyyəti illərində respublikanın çap məhsuluna olan tələbatını tam həcmdə ödəməyə imkan verən zəruri texniki

avadanlıq və maşın parkı ilə təchiz olunmuş nəşriyyat-poliqrafiya sistemi formalaşmış, çapa hazırlanan nəşrlərin məzmununa, elmi, ədəbi dəyərinə, bədii-texniki tərtibatına nəzarətin həyata keçirilməsi sahəsində bir sıra nailiyyətlər əldə olunmuşdur.

Dissertasiyanın **“Azərbaycan çap kitabının tərtibat xüsusiyyətləri”** adlı üç paraqrafdan ibarət 3-cü fəsilində kitabçılıq işi tarixində ilk dəfə olaraq kitab tədqiqata yazar, ədəbi, bədii və texniki redaktor, poliqrafiya mütəxəssislərinin birgə əməyinin məhsulu kimi cəlb edilmiş, bu sənət sahiblərindən hər birinin kitab tərtibatında yeri və rolu göstərilmiş, funksiyalarının qarşılıqlı uzlaşdırılması aparılmış, kitabın bitkin kompozisiyasını təmin edə bilən əsas tərtibat kriteriyaları müəyyənləşdirilmişdir.

3-cü fəsilin “Azərbaycan kitabında bədii forma və tərtibat üsullarının təsnifatı” adlanan 1-ci paraqrafında mövcud nümunələr əsasında bədii tərtibat üsullarının təsnifatı verilib ifadə vasitələri dəqiqləşdirilmiş, “Azərbaycan kitabının tərtibatında maddi-texniki bazanın yeri” adlanan 3-cü paraqrafında kitab tərtibatında maddi-texniki bazanın rolu və yeri, “Azərbaycan kitabının kompozisiya və poliqrafik forması” adlanan 2-ci paraqrafında nəşrin kompozisiya və poliqrafik forması, həmçinin, bütün bunların, psixofizioloji amillər də daxil edilməklə tərtibata və son nəticədə mətnin dərkolunma səviyyəsinə təsiri dəqiqləşdirilmişdir.

Forması məzmunu ilə birgə doğulan nəşrin özəyini, onun ideya-mövzu əsası təskil edir. Təsviri sənətdə obrazların bədii ifadə formasına uyğun qəbul edilməsi, maddi vasitələrin formanın əsasnı təşkil etdiyini deməyə əsas verir. Nəşrin qayəsinin qavranılmasına köklənən məlumatların oxucuya, onun qəbul edib qavraya biləcəyi tərzdə çatdırılması, çətin anlaşılan yerlərə izahat verilməsi, vacib söz və ifadələrin əsas mətndən yıgım üsuluna, rənginə görə seçilib ayrılması xüsusi əhəmiyyət kəsb edir.

Rəssam təxəyyülünün məhsulu olan təsvirin şüurumuzda tamamilə konkret hisslər oyatması, bədii obrazın yaranmasına birbaşa təsiri olan əsas və ikinci dərəcəli texniki vasitələrin köməyilə oxucuda hər hansı bir rəy formalaşdırmağın mümkünlüyünü təsdiqləyir. Texniki vasitələr dedikdə, rəssamın tərtibat prosesin-

də istifadə etdiyi boya, kagız və s. kimi materiallar nəzərdə tutulur. Bura poliqrafiya materialları da əlavə edilə bilər: çap boyaları, cild materialları və s. Yalnız texniki göstəricilərinə görə biri digərindən seçilən bu vasitələrin təsvirin keyfiyyətinə göstərdikləri təsirin həcmi, onlarsız nə isə yaratmağın qeyri-mümkünlüyünü təsdiqləyir. Təsvirdən kənarda heç bir dəyər kəsb etməyən rəng, fon, faktura, xətt, ləkə, nöqtə, cizgi və s. nəşrlə birlikdə müəyyən əhəmiyyət kəsb edib təsvirin oxucu psixologiyasına təsirini təmin edir, məs.: qrafik təsvir bədiiliyi ilə seçilməsə də, oxucuda əşyanın quruluşu, forması və həcmi ilə baglı müəyyən təsəvvür yaradır, təvirə bədii dəyəri də, məhz bu vasitələr, yəni rəng, faktura, relyef və s. arasındakı məntiqi baglılıq verir.

Simmetrik qurulusun möhtəşəmliyini və ya asimmetrik quruluşun dinamikliyini, təsvir üçün seçilən bədii ifadə vasitələrinin xarakteri müəyyənləşdirir. Kompozisiyanın mərkəzi oxunun sağ və ya solunda yerləşən tərtibat ünsürləri arasındaki qarşılıqlı əlaqə təsvirlə mərkəzi ox arasındakı bucağın ölçüsünu və hərflərin yazılış istiqamətini tənzimləyir. Dairə, oval, kvadrat, üçbucaq formalı sxemlərin hər biri kompozisiya daxilində hərəkətin xarakterini açmaqla yanaşı, həm də oxucunu, nəşrin süjet xəttini müəyyən ardıcıllıqla izləməyə vadar edir. Mətn parçalarının yerləşdirilmə tərzinin dəyişməsi, fərqli hərəkət effekti yaradir. Bizdən aralanıb irəliyə dogru uzanan sətirlərin dairədaxili düzülüşü firlanma, tədricən kiçilən şriftlər isə dərinlik effekti yaradır. Təsviri elementlər arasındakı əlaqələr əsərin ideya-mövzu əsasından, seçilən bədii vasitələrin süjetlə əlaqəsindən qaynaqlanır. Vertikal və ya horizontal xəttlərin uzunluğunun görmə mərkəzində fərqli qəbul olunması, gözün müxtəlif bucaqlar altındakı hərəkəti ilə şərtlənir. Tərtibat prosesində belə psixofizioloji əlamətlərə diqqət yetirilməsi, kompozisiya əlaqələrinin yaradıcılıq prosesində meydana çıxan obyektiv və subyektiv amillərə, yəni bədii aləmin qayda-qanunlarına uyğunlaşdırması vacib şərtdir. Təsvirlə mətn bir-birini əvəzlədikcə şüurumuzda müəyyənləşən əsas konturlar, nəşrin özəyi sayılan məzmunun bizə məntiqi ardıcıllıqla çatdırılmasını, deməli, tərtibatçının birbaşa müəllifin

yaradıcı ortagına, yəni müttəfiqinə çevrilməsini, bir-birini əvəzləyən obrazların beynimizdə müəyyən şəkil almasını təmin edir.

Əlyazmalarımızdan fərqli olaraq, çap kitablarımızın tərtibatını tək tərtibatçıların fitri istedad və ustalıqları yox, həm də poliqrafiya texnikasının texniki imkanları formalaşdırır. Mükəmməllikdən uzaq texniki avadanlıq tərtibatçıların öz fantaziyalarını həyata keçirmək şansını, yaradıcılıq imkanlarını əhəmiyyətli dərəcədə məhdudlaşdırmış olur. Poliqrafiya texnika və texnologiyasının kitabın poliqrafik icra və bədii-texniki tərtibatına göstərdiyi təsirin həcminin böyüklüyü hər yeni nəşrə öz təyinatına uyğun tərtibat verilməsini, deməli, daha uğurlu kompozisiya həlli tapılmasına səy göstərməsini tələb edir. Oxu vasitəsi kimi tanıdığımız kitabın əsl sənət nümunəsinə çevrilməsində poliqrafiya texnikasının imkanları, texnologiyanın səviyyəsi, nəşrə sərf edilən materialların özəl xüsusiyyətləri, tərtibatçının istedadı ilə yanaşı, peşəkarlığı da mühüm rol oynayır. Rəssam da naşir kimi yazarın oxucuya ünvanladığı fikirləri təbliğ etməyi, zəngin tarixi təcrübədən düzgün yararlanıb məzmun-forma uyarlılığına nail olmağı, tərtibatın məntiqliliyini təmin etməyi bacarmalıdır.

Kitaba sərf edilən materialların özəl xüsusiyyətlərinin, eləcə də, nəşrə əlavə effektlərin verilməsini təmin edən üsulların (laminasiya, çopurlama və s.) araşdırılması redaktora, verdiyi tərtibatın istehsalat prosesində uğraya biləcəyi dəyişiklikləri əvvəldən göz önünə gətirib mümkün yanlışlıqları aradan qaldırmaq, deməli, nəşrin tərtibat səviyyəsini də yüksəltmək imkanı verir.

Heç bir metodiki göstəriş, bilik və hətta uzunillik təcrübə belə redaktor üçün fitri istedad və dünyagörüşünü əvəz edə bilməsə də, bədii tərtibat üsulları, nəşrin kompozisiya və bədii-poliqrafik forması, maddi-texniki bazanın xüsusiyyətləri ilə tanışlıq onun qarşısında yeni, daha geniş üfiqlər açır, ona düşündüklərini həyata keçirib orijinal tərtibata imza atmaq şansı qazandırmış olur.

Kitabın poliqrafik icra keyfiyyəti mətbəənin texniki imkanlarının nəzərə alınmasını və texnologiyaya düzgün riayət olunmasını tələb edir. Kitab və xüsusilə də onun cild, üz qabığı, supercild, frontispis, titul, forzas kimi elementlərinin keyfiyyəti bədii

tərtibata güclü təsir göstərən bir çox amillərlə şərtlənir, belə amillərə diqqət yetirməyən redaktor, istifadə etdiyi materialların rəng, faktura kimi özəl xüsusiyyətlərindən maksimum dərəcədə yararlanmaq şansını itirmiş olur. İncəsənətin bir qolu olan kitab tərtibatı istehsalata söykənməli, təsviri sənətin xüsusi istedad tələb edən bu növü ilə məşğul olub şəxsi dəst-xətt və üslubunun təhrif edilməsinə yol vermək istəməyən qrafika rəssamı nəşrin poliqrafik icrasına diqqət yetirməli, təcrübəli texnoloqla məsləhətləşməkdən çəkinməməlidir. Əks halda, mətbəənin texniki imkanlarının və texnologiyanın səviyyəsinin, rəng, kağız və qeyri-materialların keyfiyyəti ilə yanaşı, texnoloqun səriştə və poliqrafiya mədəniyyətinin də həlledici rol oynadığı istehsalat mərhələsində tərtibat işləri və ümumilikdə nəşr, çox şey itirə bilər.

Kitab tərtibatı müəyyən istehsal prosesləri, yəni poliqrafiya ilə bağlı olub, onun bu və ya digər sahəsinin texniki imkanlarından asılı olan mürəkkəb bir prosesdir. Elə yunan sözü olub, "poli"-"çox", "qrafo" - çəkirəm, yazıram mənasını verən bu terminin özü də, sənətlə kitab istehsal edən texnika arasındakı bağlılığı ifadə edir. Texnikadan səmərəli istifadə etməklə bədii və texnoloji proseslərin vəhdətinə nail olmağa can atan tərtibatçı, bu vəhdətdən mümkün qədər yararlanmağı, yəni əlverişli bədii effekt almağı da bacarmalıdır. Buna isə, ancaq texnikaya bələd olub materialların xüsusiyyətlərindən yaxşı baş çıxarmaqla nail olmaq olar. Müasir poliqrafiya sənayesinin öz texniki nailiyyətlərilə getdikcə daha çox incəsənət sahəsini xatırlatması, bu gün isbata ehtiyacı olmayan bir fakt kimi qəbul olunmaqdadır. Respublika müəssisələrində istifadə edilən texnika və texnologiyaların daim yenilənməsi kitabların poliqrafik icra səviyyəsinin yüksəlməsinə səbəb olsa da, təəssüf ki, bu təsir son illərdə nəşr olunan kitabların bədii və texniki tərtibatında, hələ bir o qədər də hiss olunmur. İstifadə rahatlığı, poliqrafik icrası ilə seçilən kitab oxucusunu özünə tək rəngarəng görünüşü ilə deyil, həm də məntiqli tərtibatı vasitəsilə cəlb etməli, əsərin ideya-məzmununun ona dəqiqliklə çatdırılmasını təmin etməlidir. Axı, yazar, nəşriyyat və poliqrafiya müəssisəsinin birgə fəaliyyətinin son nəticəsi

kimi ərsəyə gələn kitab, əsasən ideya, məzmun, bədii-texniki tərtibat və poliqrafik icra keyfiyyətinə görə dəyərləndirilir.

Əsl sənət nümunəsi ola biləcək kitabın ərsəyə gətirilməsi yazarla yanaşı ədəbi, texniki və bədii redaktorlardan, poliqrafiya mütəxəssislərindən də bilik, yüksək peşəkarlıq və öz işinə məsuliyyətlə yanaşmağı tələb edir. Bu sənət sahiblərindən heç olmasa birinin ixtisasca zəif olub işinə laqeyd münasibət bəsləməsi keyfiyyətli kitabın alınması ehtimalını heçə endirir. Miskin məzmunu bahalı kağız, rəng bolluğu, qızılı işləməli cildlə, bir sözlə, "gözqamaşdıran" tərtibatla gizlətmək cəhdləri tərtibat prinsiplərinə yad olduğu kimi, məntiqsiz tərtibatın istənilən əsəri dəyərdən salıb oxucunu yanlış istiqamətə yönəldə biləcəyi də, dəfələrlə təsdiqini tapmış bir həqiqətdir. Kitabda biri digərinə bağlı olub onu tamamlayan elementlərin vahid ahəngə köklənməsi, məzmun-forma uyarlılığı, məntiqlilik, ardıcıllıq və vəhdətin zəruriliyi isbata ehtiyacı olmayan bir fakt kimi qəbul olunmalıdır.

**“Müstəqillik dövründə Azərbaycanda kitab tərtibatının vəziyyəti və inkişaf perspektivləri”** adlanan 3 paraqrafdan ibarət 4-cü fəslin “Müasir mərhələdə Azərbaycanda kitab tərtibatının vəziyyəti” adlanan 1-ci paraqrafında müstəqillik dövründə Azərbaycan kitabının keçdiyi tarixi yola işıq salınmış, bu sahədə qazanılmış uğurlarla yanaşı, həm də çatışmazlıqlar diqqətə çatdırılır, ”Azərbaycan kitabının tərtibatçı rəssamları (1991-2010-cu illər)” adlanan 2-ci paraqrafında tərtibatçı rəssamlardan (A.Ələkbərov, İ.Məmmədov, R.Əsədov, V.Allahyarova, İ.Mehdiyev, A.Nəcəfov, H.Qasımov, Y.Əsədov, Z.Əliyev və b.), onların tərtibat verdikləri nəşrlərdən, kitab qrafikası sahəsində qazandıqları uğurlardan söz açılır,”Azərbaycanda kitab tərtibatının inkişaf perspektivləri” adlanan 3-cü paraqrafında nəşriyyat--poliqrafiya sistemində rastlaşdığımız problemlər və onları doğuran amillər işıqlandırılır, çatışmazlıqların aradan qaldırılmasına hesablanan tədbirlərin həyata keçirilməsi yolları göstərilir və kitab tərtibatının gələcək inkişaf perspektivləri dəqiqləşdirilir:

- kitab tərtibatı nümunələrinin bədii tərtibatı sahəsində çoxəsrlik təcrübəyə söykənən bütün mümkün bədii-texniki tərtibat

variantlarının (təsvirin kompozisiya mərkəzinə nəzərən hərəkət bucağının dəyişməsi, səhifənin ağırlıq mərkəzinə diqqət edilməsi, səthi şriftlə həcmli illüstrasiyanın əlaqəsi və s.) müəyyənləşdirilib, hər bir variantın mənfi və müsbət cəhətlərinin hərtərəfli araşdırılıb təhlil edilməsi və metodiki vəsait şəklində nəşr olunub bədii redaktorların ixtiyarına verilməsi;

- kadr (naşır, ədəbi, texniki, bədii redaktor) hazırlığının yüksək səviyyədə təşkili üçün zəruri olan "Texniki redaktə", "Poliqrafiya texnikasının və texnologiyasının əsasları", "Nəşriyyat texnologiyasının əsasları", "Redaksiya-nəşriyyat işinin texnologiyası" və s. kimi dərsliklərin yazılıb nəşr olunması;

- yerli istehsalçının hüquqlarının müdafiə edilməsinə və işsizlik probleminin həllinə yönələn tədbirlərin həyata keçirilməsi: xaricdə hazırlan sifarişlər üçün təyin olunan gömrük rüsumunun bir neçə dəfə artırılması, respublika ərazisinə gətirilən poliqrafiya materiallarının isə idxal vergisindən azad edilməsi və s.

- nəşriyyatların qarşısında konkret sahə üzrə ixtisaslaşma tələbinin qoyulması, onların ixtisaslaşdıqları sahənin təyinatına uyğun yeni şrift dəstlərinin sifarişçisi rolunda çıxış edib bu sahəni inkişafına öz töhfələrini verməsinə, nəşriyyat fəaliyyəti ilə məşğul olan və ya olmaq üçün lisenziya almağa sənəd verən iddiaçıların idealoji cəhətdən xüsusi əhəmiyyət kəsb edən bu sahədə ali təhsil alıb təcrübə məktəbi keçməsinə nəzarət edilməsi;

- **hərflərinin kodlarını dəyişmək yolu ilə (“Azeri Keyboard Layout” proqramın**ın köməyilə**) əlifbamıza uyğunlaşdırdır**ılan **çoxsaylı şrift dəstlərinin (“A Cey Bookman”, “A Cey Classic Lat”, “A Cey Bold İtalic”, “N Lat Fatih”, “N Lat Futura, “N Lat Vokal” və s.) klaviatura düzülüşünün beynəlxalq standartlara uyğun vahid sistemə (UNIKOD) qoşulmasın**ın sürətləndirilməsi;

- nəşriyyatlarda çapa hazırlanan nəşrlərin ideya yönümünə, elmi-ədəbi dəyərinə, faktların dəqiqliyinə, redaktə prinsiplərinin gözlənilməsinə və nəşrlərin tərtibatına nəzarətin bərpa olunması;

- nəşriyyat-poliqrafiya müəssisələrinin elmi əsaslarla idarə olunmasını təmin etmək üçün bu sahədə qüvvədə olan normativ

sənəd və standartlara elmin müasir inkişaf səviyyəsinə uyğun düzəlişlərin (kompyüterin imkanları nəzərə alınmaqla) edilməsi, nəşriyyat-poliqrafiya texnologiyasının təkmilləşdirilməsi və s.

- müxtəlif çeşidli kağız, karton, cild materialları, təbəqə və s. kimi poliqrafiya materialları istehsalının yerli xammal, istehsalat və məişət tullantıları hesabına təşkili və s.

İnkişafın hər növbəti mərhələsindəki yenilik, ona çatana qədər qazanılan təcrübəyə söykənir. Orta əsr mənbələrindən aldığımız məlumatların əlimizə gəlib çatmış əlyazma nüsxələri əsasında təhlil edilib bugünkü vəziyyətin müəyyənləşdirilməsi nöqteyi-nəzərindən araşdırılması, bizə qədim kitab sənəti ustalarının yaradıcılıq üslubları, iş üsulları və istifadə etdikləri materiallar, eləcə də, kitab tərtibatı sahəsində qazandıqları uğurlarla bağlı müəyyən təsəvvürə malik olub qiymətli elmi material əldə etmək şansı verir. Nəticədə, tək orta əsr sənətkarlarının həyat və yaradıcılığı, kalliqrafiya, miniatür və qrafik rəsmlər, ornament, kitab elementləri və bədii cild sənəti nümunələri ilə tanış olmur, həm də bilik xəzinəmizi müasir dövrün tələbatı ilə səsləşə bilən, yüzilliklər ərzində qazanılmış dəyərli məlumatlarla zənginləşdirmiş oluruq. Tarixi təcrübənin mərhələli şəkildə təhlil edilib öyrənilməsi sayəsində əldə edilmiş qənaətlər bir çox çatışmazlıqların aradan qaldırılmasına yardım edib bu sahənin gələcək inkişafını təmin etməklə yanaşı, həm də hər bir redaktora yaradıcılıq istiqamətini düzgün təyin edib Azərbaycanda kitab tərtibatını daha yüksək inkişaf nöqtəsinə qaldırmaq şansı vermiş olur.

Dissertasiyada kitabçılıq tarixində ilk dəfə olaraq Azərbaycan kitabının yazı və əlifba meydana gələndən 2010-cu ilə kimi keçdiyi tarixi yol pillə-pillə izlənilmiş, yüzilliklər ərzində bu sahədə qazanılmış zəngin tarixi təcrübə öyrənilib təhlil edilmişdir. Tədqiqata, keçmiş SSRİ və indiki MDB məkanında dərc olunmuş elmi-tədqiqat materialları (xarici dillərdən tərcümə edilən, internet vasitəsi ilə əldə edilən materiallar da daxil olmaqla) ilə yanaşı, həm də AMEA-nın M.Füzuli adına Əlyazmalar institutunda, M.F.Axundov adına Milli Kitabxanada və AMEA-nın Mərkəzi Elmi Kitabxanasında saxlanılan, eləcə də, satışda olan çox-

saylı nümunələr cəlb olunmuş, onların tərtibat xüsusiyyətləri konkret faktlar əsasında təhlil edilib ümumiləşdirilmişdir.

Aparılan ümumiləşdirmələrin məntiqi yekunu olan qənaətlər ehtimal və fərziyyələrə yox, istehsalatda dəfələrlə sınaqdan çıxarılmış təkzibolunmaz arqumentlərə və faktlara söykəndiyindən xüsusi əhəmiyyət kəsb edir. Tədqiqat kitabşünaslıq elminin zənginliyini, digər elmlərlə qarşılıqlı əlaqələrinin çoxşaxəliliyini aşkara çıxarmaqla yanaşı, həm də, Azərbaycan kitabının bədii-texniki tərtibatının nəzəri-təcrübi bazasının hazırlanmasına və ümumilikdə bu sahənin gələcək inkişaf perspektivlərinin müəyyənləşdirilməsinə, kitab tərtibatının müasir dövrün tələbləri və beynəlxalq standartlar səviyyəsinə yüksəlməsinə istiqamətlənən bir sıra təklif və tövsiyələrin verilməsinə imkan yaratmışdır.

Təklif və tövsiyyələr informatika, yazı qrafikası, poliqrafiya texnologiyası, standartlaşdırma, kadr hazırlığı, psixofiziologiya və s. sahələrdə növbəti axtarışlara zəmin hazırlamaqla yanaşı, həm də, gələcək tədqiqatların istiqamətini müəyyənləşdirir. İctimai rəyin, informasiyanın oxucuya göstərə biləcəyi təsirin əvvəlcədən hesablanması yolu ilə tənzimlənməsinin mümkünlüyü və redaktorların bu rəyə təsir göstərmək imkanlarının artırılması, son nəticədə dövlətin müdafiə qüdrətinin artmasına, milli birliyin bərqərar olmasına və sabitliyin qorunmasına xidmət edir:

Poliqrafiya materialları istehsalını təşkil etməyə, kitab və s. nəşrini, reklam və yayımını, eləcə də, bu funksiyaları həyata keçirən müəssisələrin qarşılıqlı əlaqəsini tənzimləməyə imkan verən müddəalar, tək kitab tərtibatı sahəsində əsaslı dönüş yaratmağa yox, həm də bütövlükdə, nəşriyyat-poliqrafiya sisteminin gələcək inkişafını və eləcə də, bu sahədə elmi-texniki tərəqqini sürətləndirməyə hesablanmışdır. Qeyri-neft sektorunun inkişafı ilə bağlı dövlət proqramından irəli gələn məsələlərin (işsizlik problemi də daxil olmaqla) həllinə yönələn, sahibkarlığa dəstək baxımından da faydalı olan bu elmi cəhətdən əsaslandırılmış iqtisadi, texniki və texnoloji işləmələrin həyata keçirilməsi ölkə iqtisadiyyatının inkişafına əhəmiyyətli töhfə verə, çapa hazırlanan nəşrlərin bədii və texniki tərtibat səviyyəsini yüksəldə bilər.

## Dissertasiyanın əsas məzmunu tədqiqatçının mövzu ilə bağlı çap olunmuş aşağıdakı elmi məqalə və tezislərində öz əksini tapmışdır:

1.Orta əsr Azərbaycan əlyazma kitabının xətt növləri // "Kitabşünaslıq və nəşriyyat işi" jurnalı, Bakı, 2008, № 1, s. 79-85

2.Əlyazma kitablarının tərtibat xüsusiyyətləri // AMEA-nın Folklor İnstitutunun "Elmi axtarışlar" jurnalı , Bakı, 2009, № 4, s. 68-73

3. Karikaturanın Azərbaycan kitab illüstrasiyasında yeri // Bakı Slavyan Universitetinin "Humanitar elmlərin öyrənilməsinin aktual problemləri" jurnalı, Bakı, 2010, № 3, s. 272-280

4. Azərbaycanda yazı və əlyazma kitabının yaranması // AMEA MK-nın "Elmi əsərlər" jurnalı, Bakı, 2009, № 10, s.131-139

5. Orta əsr sənətkarlarının bədii-texniki materialları // "Dil və ədəbiyyat" jurnalı, Bakı, 2009, № 03, s. 269-275

6.İlkin kitab illüstrasiyası şəklində meydana gələn miniatürlər // "Qobustan" juenalı, Bakı, 2010, № 4, s. 82-86

7. Kitabın çap üsulları və poliqrafiya texnikasının imkanları ilə bağlı tərtibat xüsusiyyətləri // M.Füzuli adına Əlyazmalar İnstitutunun "Filalogiya məsələləri" jurnalı, Bakı, 2011, № 4, s. 284-301

8.Azərbaycan çap kitabının tərtibatında təsviri sənət ustalarının yeri (1920-ci ilə qədər) // AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun"Filalogiya məsələləri"jurnalı, Bakı, 2012,№ 1, s. 484-491

9. Azərbaycan kitabının tərtibatçıları (1991-2010-cu illər) // "Kitabşünaslıq və nəşriyyat işi" jurnalı, Bakı, 2011, № 3, s. 9-15

10. Azərbaycan çap kitabının yaranması və vəziyyəti (1920- ci ilə qədər) // AMEA-nın Folklor İnstitutunun "Elmi axtarışlar" jurnalı, Bakı, 2012, № 1, s. 109-116

11. Azərbaycan kitabının tərtibatı və inkişaf perspektivləri: müstəqillik dövrü (1991-2010-cu illər) // M.Füzuli adına Əlyazmalar İnstitutunun "Filalogiya məsələləri" jurnalı, Bakı, 2012, № 6, s. 413-421

12. Azərbaycan kitabının tərtibatında maddi-texniki bazanın yeri // AMEA-nın M.Füzuli adına Əlyazmalar İnstitutunun "Filalogiya məsələləri" jurnalı, Bakı, 2012, № 7, s. 245-253

13. Azərbaycan kitabında bədii tərtibat üsullarının təsnifatı prinsipləri // AMEA-nın Folklor İnstitutunun "Elmi axtarışlar" jurnalı, Bakı, 2012, № 1, s. 68-73

14. Azərbaycan kitabının bədii və texniki tərtibatı məsələləri // AMEA Mərkəzi Kitabxanasının "Elmi əsərlər" jurnalı, Bakı, 2012, № 11, s.131-139

15. Əlyazma kitablarının bədii tərtibatında orta əsr sənətkarlarının yeri // Yazı (Gürcüstan), Tibilsi, 2009, № 2, s. 68-73

16. Əlyazma kitab illüstrasiyaları // "Xudafərin" jurnalı (İran), Təbriz, 2009, № 7, s. 10-11

17. Этапы развития Азербайджанской карикатуры, одной из разновидностей книжной иллюстрации // журнал "Наследие" Москва, 2007, № 2, с. 48-53

18. Создание и оформление Азербайджанской рукописной книги // журнал "Актуальные проблемы гуманитарных и естественных наук", Москва, 2012, № 8, с. 105-114

19. Квалификационные принципы художественного оформления книг в Азербайджане // журнал "Вестник гуманитарного научного образования", Москва, 2012, № 8, с.16-19

20. Каллиграфические стили рукописей Азербайджана // журнал "Московское научное обозрение",Москва, 2012,№ 8,с. 28-31

21. Квалификационные принципы оформления книг в Азербайджане // Gürcüstan Milli Elmlər Akademiyasının "Elmi əsərlər" jurnalı , Tibilisi, 2012, № 4, s. 68-73

22. Формирование и развитие рукописной книги в Азербайджане // "European Social Science Journal", Москва, 2012, № 10, s. 114-121

23. Перспективы развития Азербайджанской печатной книги в годы суверенитета // журнал "Научное периодика: проблемы и решения", Москва, 2012, № 5, с. 23-29

24. “Die Entstehung der handgeschriebenen Bu"cher in Aserbaidschan und deren Entwicklung “(”Azərbaycan əlyazma kitabının formalaşması” // Jahrbuch Aserbaidschanforschung" (jurnal ”Az. tədqiqatları”), Берлин,“Verlag Dr. Koster", 2012, № 5, p. 15.

25. Создание и оформление Азербайджанской рукописной книги // Материалы международного научного конфранса по теме «Современные проблемы гуманитарных и естественных наук”, Москва, Спецкнига, 2012, с. 166-173

26. Azərbaycan əlyazma kitablarının tərtibat xüsusiyyətləri // “Müasir informasiya məkanı və kitabxanalar” adlı Respublika Elmi konfransının materialları, Bakı, 2010, s. 99-102

27. Müstəqillik dövrü Azərbaycan kitabının tərtibatı və inkişaf perspektivləri: (1991-2010-cu illər) // “Kitabşünaslıq-informasiya və nəşriyyat fəaliyyətinin müasir problemləri” adlı Respublika Elmi konfransının materialları, Bakı, 2012, s. 103-104

И.Г.Алескерова

# ВОПРОСЫ ХУДОЖЕСТВЕННО-ТЕХНИЧЕСКОГО ОФОРМЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ КНИГИ

## РЕЗЮМЕ

Диссертация состоит из «Введения», четырех глав, «Заключения», списка литературы и трех дополнений.

В 1-ой главе («Художественно-техническое оформление азербайджанской рукописной книги») рассказывается об этапах развития рукописной книги, о разновидностях и создателях стилей почерка арабского алфавита, о материалах, использованных мастерами средневековья для переписывания книг. Отмечается своеобразие книжного искусства, которое развивалась в тесном контакте профессионалов из разных стран. О том, что именно этот контакт обеспечил богатство декоративных форм миниатюр, а также многообразие приемов оформления страниц и переплетов kниг.

Во 2-ой главе («История оформления азербайджанской печатной книги и ее оформители») рассказывается о первых шагах в области книгопечатания в Азербайджане, прослеживаются этапы развития книгопечатания, напрямую связанные с совершенствованием полиграфической техники и технологии; подробно рассказывается об оформителях книги XIX-XX ввеков (до суверенитета).

В 3-ей главе («Особенности оформления азербайджанской печатной книги») рассказывается о том, что впервые в истории книгопечатания произведено исследование особенностей оформления печатной книги в соответствии с возможностями техники и технологии, произведена классификация способов художественного оформления и уточнены средства художественного выражения на основе имеющихся в наличии образцов книг, выявлена роль материально-технической базы в оформлении книг, определена композиция и полиграфическая форма печатных изданий.

В 4-ой главе («Оформление азербайджанской книги после приобретения суверенитета») рассказывается об изменениях в сфере издательской деятельности, о мерах, принятых руководством страны после перехода на латинскую графику, об оформителях книги, анализируются данные и выявляются недостатки, имеющие место в области книгопечатания и оформления книг.

В заключении обобщаются основные результаты исследования, даются предложения и рекомендации по улучшению художественно-технического оформления книг, определяются пути и направления дальнейшего развития книгопечатания в республике, а также анализируется текущее положение в данной области.

I.G.Aleskerova

# ARTISTIC AND TECHNICAL MATTERS OF THE DECORATED OF AZERBAIJAN BOOKS

## SUMMARY

The thesis consists of the "Introduction", four chapters, "Conclusions", list of references and three additions.

In the first chapter ("Art and technical design of the Azerbaijan manuscripts") describes the stages of the manuscript, the creators of handwriting styles and varieties of the Arabic alphabet, the use of written materials book artists of the Middle Ages for the census books. Investigated peculiarities of medieval book art, which was developed in close contact with the traditions of manuscripts neighboring countries. The fact that this contacted to richstvo and decorative forms miniature book, diversity of methods of artistic decoration of pages and binding.

The second chapter ("History of Azerbaijan design printed matter of the book and its designers") describes the formation of the Azerbaijan printed book tracks stages of its development, is directly related to the improvement of printing techniques and technologies; Designers of printed books for the period XIX-XX century (to the obtaining of the sovereignty of the Republic).

The third chapter ("Particulars of Azerbaijan printed book") explains that the first time in the history of Azerbaijan produced printing investigation singularity design Azerbaijan printed book, along with who possibility of printing methods, printing equipment and technology, a classification of methods Artistic Contentstion and refined means of artistic expression on the basis of samples of books, found the place and role of the material and technical base of the in book, and clearly define the composition and artistic form printing publications.

In the fourth chapter ("Drawing Book of Azerbaijan in the years of sovereignty") describes the changes in the field of publishing, on the measures taken by the leadership of the country after the transition to latyn graphics, the creators of the book analiyzes the data and identified deficiencies that occur in this area.

In conclusion summarizes the main results and conclusions used repetition, gives advice and recommendations for improve artistic technical design books, identifying new avenues and directions further development of printing in the country and the situation in the region as a whole.

Çapa imzalanmışdır: 14.01.2015
Formatı: 60x84 1/16. Tirajı: 100

"Mütərcim" Nəşriyyat-Poliqrafiya Mərkəzi
Bakı, Rəsul Rza küç., 125
tel. / faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

Алескерова Ирада Гаджи кызы

# ВОПРОСЫ ХУДОЖЕСТВЕННО-ТЕХНИЧЕСКОГО ОФОРМЛЕНИЯ АЗЕРБАЙДЖАНСКОЙ КНИГИ

3356.01 – по специальности

“Библиотековедение и библиография; Книговедение "

**АВТОРЕФЕРАТ**

диссертации на соискание ученой степени

доктора философских наук по истории

БАКУ - 2015